*Milli-mənəvi dəyərlərimiz və vətənpərvərlik*

# Könlümün sevgili məhbubu mənim...

Hardan başlanır Vətən? Bu suala cavab-dünyaya göz açıldığı məkandan. Bu məkan insana həyat verir, görə-görə, duya-duya yaşayır insan. Sonra isə dərk edir ki, həyat, dünya gözəldir, insan ömrünü yaşamağına dəyir... Şair Məmməd Araz demiş:

***Yenə gördüm gördüyümüz dağları,***
***Nəfəsindən əriyirdi dağ qarı.***
***Yenə elə durnaların qatarı,***
***Yenə elə dərə, düzən dünyadı...***




**Dünya gözəl, dünya gözəl dünyadı.**

Vətən dediyimiz o kiçik məkan o məkana sevgi ilə əhatələnir, xalqının, millətinin tam məkanı-Vətən olur. Vətən isə həyat təcəssümüdür. Sonra isə dünyanı gözəlləşdirən insan bu Vətən üçün öz şirin canını belə fəda etməyə hər an hazır olur.

Abbas Səhhət demiş:

***Könlümün sevgili,***
***məhbubu mənim...***

Vətəni yad baxışlardan qoruyanlar igid, qəhrəman sayılır və öz ömürlərini yadellilərlə mübarizədə əbədiyyət məhfumlu bir dünyaya gömürlər. Göylərə çəkilir, zirvələrdə ruhlara dönərək yaşayırlar. Onlar şəhidlərdir. O zirvəni fəth etmək qismıti olmayan igidlər isə bəzən aldığı travmalarla, bəzən isə sağlamlığını, bədəninin bəzi üzvlərini "şəhid verərək" bu dünyada yaşarlar. Belələrinin isə bir adı var-Vətən fədailəri, qaziləri.

**Birgəlik**

Yaşadığı torpağın daimi keşiyində duran, xalqının xoşbəxt yaşamını təmin edən, bu məqsədlə çalışan insanlardır vətənpərvərlər. Məhz onların əməlləridir vətənpərvərlik. Vətənpərvərlik isə milli-mənəvi zənginlikdir. Bu nüansı isə insanlıq duyumu zəngin olanlar, zəhmətlə, halallıqla yaşayanlar doğrulda bilir.

I Qarabağ müharibəsində eloğlularımız igidlik nümunəsi ilə döyüşsələr də ölkədə baş verən bəzi hərc-mərcliyin qurbanı oldu zəfərimiz. Nə qədər şəhid verdi Vətən-düz 4 il! 30 ildə də şəhidlər verildi... Ancaq ölkə rəhbəri Azərbaycan Respublikasının prezidenti Ali Baş Komandan, ulu öndər Heydər Əliyevin davamçısı İlham Əliyev 2020-ci ildə illərin ən ali "manevrini" etdi. 44 günlük qisas müharibəsinin başlandığını elan etdi və xalq onun səsinə səs verdi: xalq müharibəsi başladı və yağı düşmən igidlərin birgəlik, qəhrəmanlıq simvolu rəmzi olan "Dəmir yumruğun" zərbinə dözüm gətirə bilmədi. I Qarabağ müharibəsinin, Aprel döyüşlərinin, iyul hadisələrinin öcü alındı... Əlbəttə həyatın fəlsəfəsi elə onun bumeranq olmasıdır.

**Torpağın dirəkləri şəhidlərdir**

II Qarabağ-Vətən Müharibəsində Ali Baş Komandanın güclü ordu yaratmaq və xalqla birləşərək torpaqlarımızın bir hissəsini yağı tapdaqlardan düşməni rədd etmək fikri tarixi qələbənin yaranması üçün əsas oldu. Vətən oğulları öz şücaəti, igidlik salnaməsi ilə yeni tarix yazdılar. Bu zəfər tarixidir.

Əlbəttə hər bir zəfər asanlıqla əldə olunmaz. Vətən qayalarında mamır olub bitdilər igidlərimiz, çünki onlara oğul dedi Vətən! Yad tapdağında olan torpaqlar igidlərimizin qanı ilə "sulandı". Vətən torpaqları şəhidlərimizin ruhlarının türklərdə deyildiyi kimi, "omuzundadır"!

2020-ci ilin 27 sentyabrında başlanan müharibədə məhz Polad, Mübariz, İlqar və bu kimi igid ruhlu gənclərimiz zəfər tarixini öz qanları bahasına yazdılar və 3000-dən çox igidimiz şəhadətə qovuşdu, yüzlərlə gənc qazi oldu, sağlamlığını itirdi. Görəsən tarix yazan övladlar tarixdə əbədi yaşayacaqmı?

Nə qədər ki, insanların insan "məni" oyaqdır, milli düşüncələri zəngindir, vətən sevgisi sonsuzdur, vətəndaşlıq məhfumunu dərk edir-bax, o qədər də yaşayacaq! Ən ümdəsi odur ki, belələrinin sayı çox ola!..

Vətən sevgisi güclü olanlar vətənin fədailərinə daim qiymət, dəyər verərlər. Həm də hər kəs bacardığı qədər, gücü müqabilində. Qələm əhlinin etdikləri isə tarixi bir sənəd kimi qiymətləndirilməlidir. Qəzet və jurnalların, kitabların ölçüsündən, yazılış tərzindən asılı olmayaraq, gələcək nəsillər üçün ərməğandır bu yazılanlar. Vərəqlər saralsa belə, fikirlər, düşüncələr eynilə qalar; qəhrəmanların şücaəti isə təbii ki, əbədi bir xarakter kimi, danılmaz fakt kimi tezisə çevrilərək yaşar.

Qəbələmizin qələm əhli də hər kəs öz gücü müqabilində tarix yazanların şücaətlərini əbədiləşdirir, xarakter və kimliyini qələmiylə sənəd kimi tarixləşdirirlər.

Onlar haqda qəzet və jurnal səhifələrində, kitablarda materiallar hazırlanır və bəzən ayrı-ayrılıqda kitablar nəşr olunur. Yazılma səviyyəsindən asılı olmayaraq o yazılanların hər biri bir sənəd, sabah üçün bir tarix.

**Ruhlar ehtiram gözlər**

Vətənpərvərlik milli-mənəvi duyğuların zəngin olduğu insanlarda daha güclüdür. Vətənpərvər insanlarda unutqanlıq yox. Onlardakı vətən sevgisi soykööündən gəlmiş, qanında formalaşmışdır. Vətənpərvərlər qazi və döyüşçü ailələri ilə, xüsusilə şəhid ailələri ilə daim görüşür. Acılı anlarında onlarla olur, şəhid övladlarımızın məzarlarını tez-tez ziyarət edirlər. Bəzən elə insanlar var ki, şəhid məzarları ilə şəkil çəkdirib sosial səhifədə paylaşırlar. Bu reklam xarakteridir. Şəkil çəkdirərkən belə geyim tərzi, hərəkətlər, danışıq tərzi, danışılan mövzu nəzərə alınmalıdır.

Çünki şəhidlər ölməz! Ölməz insanların ruhları həmişə ayıq-sayıq: hörmət, izzət, ehtiram, sevgi gözlər, bu onların haqqı!..




Qəbələ yazarları bütün şəhidlərə, adlarına belə hörmətlə yanaşarlar. Onların qələmindən çıxan hər kəlmə ürəklərindən gələn səs, nida, çırpıntılardır. Çünki şəhidlərdən, qazilərdən göz yaşı və ürək ağrısı olmadan yazmaq mümkün deyil. Onların ən yaxın adamı, doğması kimi hiss etməsə özünü, yazarın yazısı ürəklərə yol tapa bilməz.

Qəbələ yazarlarının şəhidlərimiz haqda müxtəlif qəzet səhifələrində yazdığı yazılar, ayrı-ayrı kitablar, şəhid ailələrinə və qazilərə təqdim etdikləri şeir və publisist yazılar, həmçinin rəsmlər belə onlardakı vətənpərvərlik hisslərinin sonsuzluğunun misalıdır. Həmyerlimiz, filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Məmmədovanın, Şəhla Bayramovanın, şəhid atası Cəlil (Komradlı) Xeyirbəyin, Emin Ədilovun, Mirhəsən Ağayevin, Elmira Abdurahmanqızının, Ziynət Tahirovanın, Fəxrəddin Babayevin, Elza Dənizin, Gülxar Vəfalının, Mərziyə Qəbələlinin, Simuzər İbrahimovanın, Ömər Səmədovun, Valeh Mikayılovun yazdığı şeir və publisist yazılar məhz milli-mənəvi dəyərlərin, vətənpərvərlik mövzularının təbliği, unutqanlığın bizə yad olması, vətənpərvərliyin əbədi bir mövzu olduğunu əks etdirir. Şəhla Bayramovanın, Emin Baratoğlunun, Mirhəsən Ağayevin, Cəlil Xeyirbəyin, Qərib Hüseynovun, Pərvanə Ağayevanın, Məzahir Xalidoğlunun sırf şəhidlik mövzusunda bir neçə kitabı nəşr olunmuşdur. Hər bir şəhid haqqında yazılan yazıda müəllif o şəhidin valideyni, əzizi kimi o yanğını yaşayaraq yazır. Ona görə də bu çox çətin və məsuliyyətli bir mövzudur. Hər kəs bu mövzuda yaza bilməz.

Qələm əgər o mövzunu yazırsa, ürək "göz yaşı" içindədir. Ancaq qürur duyacaq vətənpərvərlərdən yazan hər kəs qürurludur və mənəvi zənginlikcə kamildir.

Tarix yazan igidləri gücündən asılı olmayaraq tarixləşdirən, onların əzizlərinə mənən yaxın olan, ziyarət və xatırlatmalara diqqət edən kəslərdir milli zənginlər, vətənpərvərlər.

Heç kəs, heç nə unudulmamalıdır, unutsaq unudarıq və acı tarix təkrar olar. Məhz buna görə də həyatda əlinə qələm alan hər kəsin başlıca mövzusu vətənpərvərlik olmalıdır. Axı vətənpərvərlik hissi yalnız milli-mənəviyyatca zəngin olan insanlarda olar!

Torpaq igid oğulların qanı ilə vətənləşib. Onun üzərində bitən hər bir təbii gözəllik, təbiətin zəngin florası bahar ömürlülərin qanı ilə suvarılıb, laləzara dönüb, Ana torpaq, Ana Vətən olub. Vətən torpağı da qədimdən şəhid olan igidlərin çiyinləri üzərindədir. Ruhları dumanlarla birgə, günəşin şəfəqləri ilə birgə göyün ənginliyindədir və hər zaman bizləri izləyirlər. Xalqının acısında dumana, xoşbəxt anlarında günəşin şəfəqlərinə dönüb özlərini hiss etdirərlər. Axı onlar ölməzliyin pik nöqtəsində, insanlığın ən ali zirvəsindədir.

**Hər yazılan bir sənəd...**

Fəxrəddin Bababəyli, Rəsul Həmidov, Qərib Qəribov, Məzahir Xalidoğlu, Mənsurə Ağayeva, Əhməd Məmmədli, Mirzəbala Yediyarov, Murad və Tural Ömərovlar, Pərvanə Ağayeva, Niyazi Zöhrabov, həmçinin qəbələli yazarlarla daima birgə olaraq şəhidlərimizi ziyarət edən, qazi və şəhid ailələri ilə görüşən Şükufə Ruhlu (İbrahimova), Sədaqət Oğuzlu vətənpərvərlik mövzusunda yazan qələm sahibləridir.

Bəzən kitab nəşr etdirmək hər kəsə nəsib olmur. Yaşadığımız zaman və qarşılaşdığımız problemlər o qədər gözəl qələm məhsullarını kölgədə qoyub və qoyur ki... ancaq vətənpərvərlərimiz şəhidlərimiz və qazilərimiz haqda yazdıqlarının itkaf olunmuş bəzilərini səliqəli şəkildə, şəkillərlə birgə, çərçivədə ünvanına təqdim edirlər. Belə yazılara şəhidlərin ev muzeylərində rast gəlmək olur. İnanın ki, onların hər biri şəhidlərimizə olan sevgidir və bu sevgi şəhid əzizlərinin qəlbində iz salır, övladına olan sevgini biruzə verir. Tez-tez ziyarət olunarkən onların dərdinə şərik olunduğu hiss olunur və ani də olsa üzlərində məmnunluq, böyük bir fəxarət duyulur. Şəhidlər isə bildiyimiz kimi hər kəsin fəxarət ünvanıdır.

Hər bir əsgərə, vətəni keşiyində müqəddəs borcunu dərk edən vətən övladına ithafən şeir, hekayə-bir sözlə əsər yazılmalıdır. Onlar vətən keşikçiləridir, sağlamlığını fəda edənlərdir, bədən üzvlərini qurban verən qazilərdir. Döyüşləri, şəhidləri görən canlı şəhidlərimizə də nə qədər gözəl əsərlər yazılsa bu tarixin gələcək nəsil üçün sənəddir, yaddaşıdır. Şair Məmməd Araz necə də gözəl deyib:

***Bir nəğmə əsgərin dodaqlarında,***
***Sərhəd küləyinə həmsöhbət olar.***
***Bir nəğmə əsgərin barmaqlarında***
***Tətiyə söykənən cəsarət olar.***

**BİBİXANIM.**